**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A. BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**Allahverdiyeva Gültəkin Afət qızı**

# BÖYÜK DÖVLƏTLƏRİN AZƏRBAYCAN SİYASƏTİ (XVIII ƏSR)

**İxtisas: 5503.02– Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# AVTOREFERATI

**BAKI - 2017**

*Dissertasiya işi Azərbaycan Respublikası Təhsil Nazirliyi, Gəncə Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor,
Əməkdar elm xadimi,
Dövlət Mükafatı laureatı **S.A.Məmmədov**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **T.T.Mustafazadə**

Tarix üzrə fəlsəfə doktoru, dosent **M.Q.Abdullayev**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – Vətən tarixi, 5502.01 – Ümumi tarix, 5507.01 -"Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 saylı Dissertasiya Şurasının "___" _________2017-ci il tarixli iclasında saat ____-da keçiriləcəkdir.

**Ünvan:** Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "_____"___________2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə fəlsəfə doktoru** **C.Ə.Bəhramov**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Bu gün Azərbaycan dünyanın geosiyasi perspektivlərində mühüm əhəmiyyət kəsb edən ölkədir. Azərbaycanın geosiyasi perspektivləri və gələcəyi beynəlxalq münasibətlərin bütün səviyyələrində – ölkələrarası, təşkilatlararası, hətta fərdlərarası əlaqələrdə geosiyasi vəziyyətin düzgün qiymətləndirilməsi, məlumatların, biliklərin dolğun qiymətləndirilməsi günün aktual məsələsidır. Hazırda beynəlxalq münasibətlər sistemində yaxın və uzaq qonşuların Azərbaycana olan qeosiyasi və iqtisadi maraqlarının tarixinin araşdırılmasının mühüm elmi əhəmiyyəti vardır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra tariximizin hər bir məqamının obyektiv şəkildə öyrənilməsi, tarixin həqiqi mənzərəsini konkret şəkildə əks etdirmək olduqca vacibdir. Bu baxımdan XVIII əsrdə böyük dövlətlərin Azərbaycan siyasətinin tədqiqi mühüm elmi aktuallıq kəsb edir.

**Tədqiqatın xronoloji çərçivəsi:** Tədqiqatın xronoloji çərçivəsi XVIII əsr müəyyən olunmuşdur, bu da Səfəvilər dövlətinin son 30-illiyi, Nadir şahın hakimiyyəti və xanlıqlar dövrünü əhatə edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** XVIII əsrdə beynəlxalq münasibətlər sistemi və böyük dövlətlərin geosiyasi hədəflərində Azərbaycanın yeri həmişə tədqiqatçıların diqqətini cəlb etmişdir. İstər Azərbaycan tarixşünaslığında, istər rus (sovet) tarixşünaslığında, istərsə də xarici tarixşünaslıqda problemin ayrı-ayrı aspektləri araşdırılmış, onlara xeyli əsər həsr olunmuşdur. Lakin bu tədqiqatların mövcudluğuna rəğmən, XVIII əsrdə böyük dövlətlərin geosiyasi hədəflərində Azərbaycana maraq tarixinin əsaslı və kompleks şəkildə araşdırıldığını iddia etmək olmaz. Problemin öyrənilməsi "hüququ"nu inhisarında saxlayan sovet tarixciləri, xeyli araşdırmalar aparmalarına baxmayaraq, bir çox məsələlərdə qərəzli mülahizələrə və əsassız iddialara yol vermişlər.

Əlbəttə, qeyd etdiklərimiz problemlə bağlı ədəbiyyatda tam bir boşluğun olması demək deyildir. İstər Azərbaycan, istər xarici müəlliflərin

elə fundamental əsərləri var ki, burada problemin araşdırılmasına bu və ya digər dərəcədə yer ayrılmışdır.

Azərbaycan tarixşünaslığında İngiltərə, Fransa, Rusiya və Osmanlı dövlətlərinin geosiyasi hədəflərinin nəzəri konsepsiyalarının işıqlandırılması Ə.Həsənovun "Geosiyasət" adlı əsərində şərh edilmişdir. Dissertasiyanın yazılması zamanı böyük dövlətlərin təçavüzkarlıq və işğalçılıq siyasətinin əsas vasitələrindən biri olan bu nəzəri konsepsiyalardan faydalanmışıq.

Azərbaycan tarixşünaslığında Xəzərin siyasi, strateji və iqtisadi rolu, Xəzər tranzit yolu uğrunda böyük dövlətlərin apardığı mübarizə R.Hüseynovun, S.Həsənovun, N.Əliyev və P.Dərəbadinin, D.Əzimli və N.Gözəlovanın tədqiqatlarında[1] şərh edilmişdir. Müəlliflərin əsərlərində işiqlandırılan məsələlər tədqiqatımız üçün mühüm əhəmiyyətə malikdir.

XVIII əsrdə böyük dövlətlərin Qafqaz uğrunda rəqabətinin güclənməsinin səbəbləri N.Sotavovun, K.Mahmudova, H.Sadıqovun, A.Çeuçevanın[2] əsərlərində acıqlanmışdır.

---

[1] Гусейнов Р.А. Концепция истории Азербайджана. Баку: Элм, 1999; Həsənov S. Dövlətlərarası münasibətlərdə Xəzərin statusu məsələsi. Bakı: 2002; Əliyev N., Darabadi P. Xəzər bölgəsində geosiyasi rəqabət və Azərbaycan. Bakı: 2001; Əliyev N.A. XVIII-XIX əsrin başlanğıcında Azərbaycanda beynəlxalq rəqabətin hərbi-dənizçilik aspektləri. // «Hərbi bilik», Bakı: 2004, №1, s.91-103; Əliyev N.A. XVIII-XIX əsrin başlanğıcında Azərbaycanda beynəlxalq rəqabətin hərbi-dənizçilik aspektləri. // «Hərbi bilik», Bakı: 2003, №6, s.76-92; Дарабади П.Г., Алиев Н.А. Геополитическое соперничество в Каспийском регионе и Азербайджан (с древнейших времен до конца XX века). Баку: АВВМУ, 2001; Дарабади П.Г., Кавказско Каспийский регион в системе геополитических отношений XVIII-начала XIX веков // Кавказ и Глобализация. Том.2, вып.4, 2008, с.144-159; Əzimli D.M. Volqa-Xəzər ticarət marşrutunun Səfəvilər dövlətinin yaranmasının 505 illiyinə həsr olunmuş III elmi-praktiki konfransın materialları. Bakı: 2006, 76-86 s; Гезалова Н.Р. Вопросы истории Азербайджана в XVIII веке в англоязычной историографии. Баку-Москваı: 2010; Гезалова Н.Р. Попытка Надир шаха Афшара по созданию военно-морского флота на Каспийском море. // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri. Humanitar Elmlər Seriyası, Bakı, 2006, №3, с.183-194.

[2] Сотавов Н.А. Кавказ в политике России, Ирана и Турции в XVIII веке. Москва: 1984; Сотавов Н.А. Северный Кавказ в русско-иранских и русско-турецких отношениях в XVIII веке. Москва: 1991; Махмудова К.З Северо-Восточный Кавказ в политике России, Ирана и Турции в XVIII-20-е годы XIX в. (Дисс. на соис. уч. степени докт. ист. наук) Владикавказ: 2013; Sadıqov H. Azərbaycan Avropa ölkələ-

Azərbaycan tarixşünaslığında İngiltərə, Fransa, Rusiya və Osmanlı dövlətlərinin Cənubi Qafqaz uğrunda rəqabətində Azərbaycanın yeri və mövqeyi ilə bağlı da bir sıra əsərlər yazılmışdır. Belə ki, İran, Türkiyə, Rusiya münasibətlərində Azərbaycan problemi, Osmanlı imperiyasının Cənubi Qafqaz siyasəti H.Abdullayev, H.Məmmədov, T.Mustafazadə və G.Nəcəflinin[3] əsərlərində tədqiq etdiyimiz mövzunun müəyyən məqamları və bir çox məsələlər səlis və ətraflı işiqlandırılmışdır. Tədqiqat işində müəlliflərin əsərlərindən hərtərəfli istifadə edilmişdir.

Son illərdə Vətən tarixinin milli konsepsiyası çərçivəsində sistemli, obyektiv şəkildə araşdırılması, o cümlədən diplomatiya tarixinə xüsusi yer ayrılması tədqirə layiqdir. Bu baxımdan Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi Y.Mahmudov və K.Şükürovun,[4] Azərbaycan Avropa ölkələrinin diplomatıyasında H.Sadıqovun, Azərbaycan-rus diplomatik münasibətlər tarixi Q.Rəhimovun[5] əsərlərində indiyədək araşdırılmayan, yaxud bu və ya digər səbəbdən qərəzli araşdırılan problemlərinin yenidən öyrənilməsi yolunda ciddi addımlardır. Azərbaycanda olmuş rus və avropalı səyyahlar, diplomatlar, tacirlərin əsərlərində mövzu ilə bağlı qiymətli faktların üzə çıxarılması mühüm məsələlərdəndir. Bu baxımdan Y.Mahmudovun silsilə əsərləri əvəzsizdir.[6]

---

rinin diplomatıyasında (1747-1829) Bakı: 2004; Sadıqov H. Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787-1829) Bakı: 1991; Чеучева А.К. Северо-западный Кавказ в политике Великобритании и Османской империи в последней четверти XVIII-60-х гг. XIX века (Автоеф. дисс. на соис. уч. степени докт. ист. наук). Москва: 2008.

[3] Абдуллаев Г.Б. Из истории северо-восточного Азербайджана (60-80-е гг. XVIII в). Баку: 1958; Məmmədov H. Osmanlı imperiyasının xarici siyasətində Azəraycan xanlıqları. // Azərbaycan CCR E.A Xəbərləri, Tarix, fəlsəfə, hüquq seriyası №3, Bakı: "Elm", 1989; Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку: Элм, 1993; Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı) Bakı: "Nurlan", 2002.

[4] Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi (1639-1828). I cild. (Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akad. müx. üzvü Y.M.Mahmudov, t.e.d. K.K.Şükürov). Bakı: "Regionların inkişafı ictimai birliyi", 2009.

[5] Рагимов Г. Из истории азербайджано-русских дипломатических отношений во второй половине XVШ-начале X1X века. Баку: 1997.

[6] Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Bakı: ADU, 1986; Yenə onun: Azərbaycanın diplomatiyası. Bakı: Təhsil, 2006.

Azərbaycanın Rusiya, İran və Türkiyə münasibətlərində R.İbadov, O.Markova, A.Əbdurəhmanov, Rusiya-Türkiyə münasibətlərində yeri T.Mustafazadə,[7] Azərbaycanın Rusiya ilə əlaqələri X.İbhaimbəyli, F.Əliyev, C.Mustafayev[8] və başqalarının əsərlərində işıqlandırılmışdır. Biz dissertasiyanı yazan zaman bu əsərlərdən də bəhrələnmişik.

XVIII əsr beynəlxalq münasibətlər sistemində Azərbaycanın önəmli yeri olduğunu sübüt edən faktor onun yaxın və qonşu ölkələrlə ticarət əlaqələridir. Azərbaycanın xarici tiçarəti tarixinin bir sıra vacib məsələlərinin öyrənilməsində V.Kulakovun, N.Kukanovanın, O.Markovanın, A.Yuxtun[9] və başqalarının əsərləri fərqlənir. Müəlliflərin əsərlərində bir sıra vaçib və elmi nəticələr vardır, onların iqtisadi-ticarət əlaqələrinə aid gətirdiyi nümunələr dəyərlidir.

XVIII əsrdə böyük dövlətlərin geosiyasi hədəflərində, onların Azərbaycana maraqlarında mühüm amillərdən biri diyarımızın iqtisadi və-

---

[7] İbadov R. Azərbaycan XVIII əsrin son rübündə Rusiya, İran və Türkiyə münasibətlərində. Lənkəran: 2004; Маркова О. Россия, Закавказье и международные отношения в XVIII веке, Москва: Наука, 1966; Абдурахманов А. Азербайджан во взаимоотношениях России, Турции и Ирана в первой половине XVIII века Баку: 1964; Quliyeva G.M. Azərbaycan yeni qeosiyasi münasibətlər sistemində. Bakı: Elm, 2011; Mustafazadə T. Quba xanlığı. Bakı: Elm, 2005; Mustafazadə T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002; Mustafazadə T. Azərbaycan-Rusiya münasibətləri (XVIII əsrin ikinci yarısı XIX əsrin əvvəlləri). Bakı: Şərq-Qərb, 2013.

[8] Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX в. Москва: 1969; Əliyev F.M. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. Bakı: Elm, 1964; Yenə onun: XVIII əsrin 40-cı illərində Xəzər ticarəti uğrunda Rusiya-İngiltərə rəqabəti və Azərbaycan xanlıqları. Azərbaycan CCR E.A "Xəbərləri", Tarix, fəlsəfə, hüquq seriyası №4, s.69-86; Мустафаев Дж.М. Северные ханства Азербайджана и России (конец XVII нач. XIX в.) Баку: Элм, 1989.

[9] Кулаков В.О Развитие персидского направления во внешней политике России в первой половине XVIII века. Вестник Самарский Государственный Универиститет, 2009. 7 (73), с.25-30; Куканова Н.Г. Очерки по истории русско-иранских торговых отношений в XVII - первой половине XIX века. Саранск, 1977; Маркова О. Русско-иранская торговля в последние десятилетия XVIII века. // Ученые записки института востоковедения АН СССР, 1959, № 1, с. 106-111; Yenə onun. Россия, Закавказье и международные отношения в XVIII веке. Москва: Наука, 1966; Юхт А.И. Торговля России с Закавказьем и Персией во второй четверти XVIII в. Москва: 1961; Yenə onun. Торговые компании России в середине XVIII века \\ Исторические записики. Москва: 1984. № 111.

ziyyətidir. M.Heydərovun, C.Mustafayevin, F.Abdullayevin[10] və başqalarının əsərlərində bizi maraqlandıran mövzunun müxtəlif aspektlərinə toxunulmuşdur.

Tədqiq etdiyimiz mövzu ilə bağlı xaricdə də bir sıra elmi əsərlər nəşr olunmuşdu. Bunlardan birinci növbədə L.Lokkartın[11] əsərini qeyd etmək lazımdır. Müəllifin Nadir şah Əfşarın hakimiyyəti dövründə ticarət və donanma işinin təşkili ilə bağlı verdiyi məlumatlar mühüm əhəmiyyətə malikdir. İngilis tarixçisi Atkin Murielin əsərində[12] XVIII əsrin 80-ci illərindən 1828-ci ilə qədərki Rusiya-İran münasibətlərinə toxunulmuş, maraqlı faktlar gətirilmiş və fikirlər söylənilmişdir. Rusiya-İngiltərə-İran münasibətlərinə "İranın Kembric tarixi"nin VII cildində[13] xeyli yer verilmişdir. Kitabda Nadir şahın İngiltərə, daha sonra Kərim xan Zənd, Ağa Məhəmməd Şah Qacarın İngiltərə və Rusiya ilə münasibətləri əks etdirilmişdir. Tədqiqatda həmin nəticələrdən istifadə edilmişdir.

Türkiyə tarixçilərindən C.Gökce və İ.Uzunçarşılının tədqiqatlarında Osmanlı dövlətinin Azərbaycan siyasəti araşdırılmış, A.Ateşin və A.Yalçınkayanın[14] əsərlərində isə Rusiya-Türkiyə müharibələri konteksində verilən materiallar diqqətdən kənarda qalmamışdır.

---

[10] Гейдаров М.Г. О системе и количестве феодальных торгово-пошлинных сборов в Азербайджане. // Известия АН Азерб. ССР. Серия История, философия, право, 1968, № 1, с.67-71; Mustafaev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002; Абдуллаев Ф. Из истории  русско иранских отношений и английской политики в иране в начале XIX века Ташкент Издательство «ФАН» 1971.

[11] Локкарт Л. Надир шах. Критическое исследование на основе первоис-точников. (Лондон-1938). Перевод с английского Н.Гезаловой. Баку, 2004.

[12] Atkin Muriel. Russia and İran 1780-1828. Minneapolis: Minneapolis Universituy press, 1980.

[13] The Cambidge History of Iran. Volume 7:  From Nadir Shah to the Islamic Republic. Edited by Avery P., Hambly G.R.G., Melville C. Cambidge History of Iran. Cambridge University Press, 1991.

[14] Cemal Gökce. Kafkasya ve Osmanlı imperatorluğunun Kafkasya siyasəti. Doktora tezi. İstanbul: 1979; İsmail Hakkı Uzunçarşılı. Osmanlı tarihi. IV Cilt, I Bölüm, (Karlofça Anlaşmasından XVIII. Yüzyılın sonlarına kadar). Türk Tarih Kurumu basım evi, Ankara: 1988; Abdurrahman Ateş. Osmanlı-İran Siyasi İlişkileri (1720-1747), Ankara: Altınpost Yayınları, 2012; Yenə onun: Aga Muhammed Hanın Kafkasya seferleri ve Osmanlı-İran ilişkileri. Karadeniz İncelemeleri Dergisi: Yıl 8, Sayı 16, Bahar 2014, s.

**Tədqiqatın mənbə bazası.** Dissertasiyanın tədqiqi zamanı mövzunun öyrənilmə dərəcəsində qeyd etdiyimiz tarixi ədəbiyyatla yanaşı eyni zamanda çap edilməmiş və çap edilmiş mənbələrdən istifadə olunmuşdur. Məhz istifadə olunmuş çeşidli qaynaqlardan əldə etdiyimiz məlumatların təhlili bizə XVIII əsrdə böyük dövlətlərin Azərbaycanla bağlı yeritdiyi siyasəti araşdırmaq, müxtəlif məsələlərə aydınlıq gətirmək və ən əsası problemi dolğun şəkildə tədqiq etmək imkanı vermişdir.

Tədqiq etdiyimiz mövzu ilə bağlı AMEA A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində surətləri saxlanılan Rusiya arxivlərinə məxsus XVIII əsrə aid rusdilli sənədlərdən[15] mümkün olduğu qədər faydalanmışıq. Bu sənədlərdə çar Rusiyasının Cənubi Qafqaz, o cümlədən Azərbaycanla bağlı işğalçı siyasətini izləmək mümkündür.

Dissertasiyanın çap edilmiş mənbələri sırasında Azərbaycan Respublikası Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutu tərəfindən Rusiya Dövlət Hərbi Tarix Arxivindən,[16] Rusiya Dövlət Tarix Arxivindən[17] və Başbakanlıq Osmanlı Arxivindən[18] əldə edilərək, elmi şərhlərlə çap edilmiş sənəd toplularında təqdim edilmiş materiallar mühüm yer tutur və bu qiymətli materiallardan da istifadə etmişik.

XVIII əsrdə Azərbaycana böyük dövlətlərin siyasi-iqtisadi marağının göstəriçisi onların bir-birilə münasibətlərini əks etdirən sənədlərdir. Bu baxımından dissertasiyanın yazılmasında dövrün hadisələrini, həm-

---

39-56; Yenə onun: Afşarlı Nadir şah ve döneminde Osmanlı-İran mücadeleleri. Doktora tezi. Isparta: 2001; Alaaddin Yalçınkaya. III. Selim ve II. Mahmud Dönemleri Osmanlı Dış Politikası. Karadeniz Tehnik Üniversitesi, Fen-Edebiyat Fakültesi Tarih Bölümü. www.altayli.net/wp

[15] AMEA, TİEA 1795/3, iş 1; 1795/3, iş 2; 1795/3, iş 3; AMEA, TİEA 1796/2; 1796/3; 1796/4 və s.

[16] Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). I cild. Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri. (Ön söz: Y.M.Mahmudov. Tərtibçi: G.C.Nəcəfli). Bakı: "Çaşıoğlu", 2010.

[17] Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). I cild. Rusiya Dövlət Tarix Arxivinin sənədləri. (Ön söz: Y.M.Mahmudov. Tərtibçi: H.N.Həsənov). Bakı: "Çaşıoğlu", 2010.

[18] Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). I cild. Türkiyə Cumhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri. (Ön söz: Y.M.Mahmudov. Tərtibçi: G.C.Nəcəfli). Bakı: "Çaşıoğlu", 2010.

cinin Azərbaycanın siyasi həyatı haqqında geniş məlumat verən, yaxın və uzaq qonşularla münasibətləri konkret sənədlərlə əks etdirən dəyərli qaynaqdan[19] da yararlanmışıq.

Böyük dövlətlərin Azərbaycana marağının göstəricisi ticarət idi. Rus müəllifləri M.Çulkov, F.Soymonov, A.Semyonov, V.Piceta, K.Br-yuin, C.Hanvey, J.Bell[20] və b. əsərlərində əks olunan materialların təhlili bizə XVIII əsrdə Azərbaycanın ticarət əlaqələrinin inkişaf dinamikasını izləmək, Rusiya, Osmanlı, İngiltərə, Fransa ilə ticarətində Azərbaycanın daha önəmli yer tutması fikrini əsaslandırmaq imkanı vermişdir.

XVIII əsrin sonlarında Azərbaycanda olmuş M.F.Bibirşteynin və S.V.Bronevskinin əsərlərində də Azərbaycan-Rusiya ticarət əlaqələri haqqında xeyli material toplanmışdır.[21]

Tədqiq etdiyimiz mövzu ilə bağlı müəyyən məsələlərə aydınlıq gə-

---

[19] Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi (1639-1828). I cild. (Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Y.M.Mahmudov, K.K.Şükürov). Bakı: "Regionların inkişafı ictimai birliyi", 2009.

[20] Чулков М.Д. Историческое описание российской коммерции при всех портах и границах от древних времен до ныне настоящего и всех преимущественных узаконений по оной государя императора Петра Великого и ныне благополучно царствующей государыны императрицы Екатерины Великой. т.II, кн.2, СПб., 1785; т.V-VI, кн.4, Москва: 1786; Соймонов Ф.И. Описание Каспийского моря и чиненных на оном российских завоеваний, яко часть истории Петра Великого. СПб., 1763; Yenə onun. О торгах за Каспийское море: древних, средних и новейших времен. СПб., 1765; Семенов А. Изучение исторических сведений о российской внешней торговле и промышленности. «Типография И.П.Глазунова и компании» , СПб., 1859; Корнелий де Брюин. Извлечения из путешествия Корнелия де Брюина. Перевод с французского языка Абезгуза // НАИИ НАНА, инв.№480; Ханвей Джон. Исторический очерк Британской торговли на Каспийском море с журналом автора о путешествии из Англии через Россию и Персию и обратно через Россию Германию и Голландию с прибавлением описания волнений в Персии в течение настоящего столетия с подробной историей великого урупатора (Надир Кули). т.I и т.II. Перевод Саламовой. // НАИИ НАНА, док.154, с.93; Ханвей Джон. Исторический очерк Британской торговли на Каспийском море. Часть . II, 1762. Перевод Л.М.Кирякова / НАИИ ТИЕА, инв. № 3678; Bell J.«Travels from St. Petersburg in Russia to diverse parts of Asia», vol I, Los-Ancelos, 1763.

[21] Бибирштейн М.Ф. Описание провинций расположенных на левом берегу Каспийского моря между реками Терек и Кура. Перевод с немец. языка С.Саламовой. НАИИ АН Азерб.Респ. Инв. 466; Броневский С.Б. Новейшие географические и исторические известия о Кавказе. ч.I, Москва: 1823.

tirmək üçün Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı arxivinin hazırladığı iki cildlik sənəd toplusunda[22] çar Rusiyasının Azərbaycan torpaqlarına işğalçı siyasətini, Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi münasibətlərini öyrənmək baxımından əhəmiyyətlidir.

Azərbaycanda olan İsveç səfirliyinin katibi alim-botanik S.Q.Qmelin,[23] kimyacı professor, həkim və naturalist İ.Y.Lerx, həkim, hollandiyalı rəssam Korneli de Bruin[24] və b. səyyahların qeydlərində də tədqiq olunan problemlər barədə faktlar xüsusilə seçilir. Bu tədqiqatlarda Qafqazın təbii-coğrafi təsviri, əhalinin etnoqrafik tarixi, Bakı və Dərbənd şəhərlərinin vəziyyəti və s. maraqlı məlumatlar toplanmışdır.

İqtisadi-coğrafi və statistik təsvirlərin mükəmməl formalarından biri, XIX əsrin əvvəllərində Qafqazın öyrənilməsi zərurətindən doğan Rusiyanın görkəmli elm və mədəniyyət, dövlət xadimləri tərəfindən hazırlanmış 4 cildlik təsvirdir.[25] Diqqəti cəlb edən digər statistik mənbələrdən biri də Qafqazın tayfaları və xalqlarının təsviri[26] adlı külliyyatdır. Burada verilən sənədlərdə Azərbaycanda əhalinin yerləşdirilməsi, etnik vəziyyəti, sosial tərkibi, ailələrin siyahıya alınması məsələləri barədə qiymətli məlumatlar vardır.

XIX əsr rus müəlliflərindən N.Dubrovinin və V.Pottonun,[27] P.Butkovun və D.Buturlinin[28] əsərlərində Rusiyanın Qafqazda müstəmləkə-

---

[22] Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasıbetlere Dair Arşiv Belgelerı. Cilt I, (1578-1914), Ankara: 1992; Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasıbetlere Dair Arşiv Belgelerı. Çilt II, (1575-1918), Ankara: 1993.

[23] Гмелин С.Г. Путешествие по России для исследования всех трех царств в природе.ч. III, СПБ, 1785.

[24] Корнелий де Брюин. Извлечения из путешествия Корнелия де Брюина. Перевод с французского языка Абезгуза // НАИИ НАНА, инв. №480.

[25] Обозрение Российских Владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях (ОРВЗ). (Составил Лекгобытов). ч.I-IV. СПб., «В типографии департамента внешней торговли»,1836.

[26] Сборник материалов для описания местностей и племен Кавказа (СМОМПК). Вып.VI. Махачкала: «Изд. Ассоциации Сенверокавказских Горских краеведческих организаций и Дагнаркомпроса», 1929.

[27] Дубровин Н. Поход графа Зубова в Персию в 1796 с приложением оперативной карты похода и плана осады Дербента. "Военный сборник", 1874, № 2-6; Yenə onun: История войн и владычества русских на Кавказе. т.I, СПб, 1871, т.II-IV,

çilik siyasəti, İngiltərə və Fransanın Rusiya əleyhinə diplomatik fəaliyyəti, İran və Türkiyənin Rusiyanın Şərq siyasətinə qarşı müqaviməti və s. məsələlərlə bağlı təkzibedilməz dəlillər vardır. Bu tədqiqatlarda mövzumuzla bağlı son dərəcə dəyərli materiallar toplamışlar.

**Tədqiqatın məqsəd və vəzifələri.** İlk qaynaqlar və mövcud ədəbiyyatdan əldə edilmiş faktiki materialın müqaisəli təhlili əsasında qarşıya qoyulmuş məqsədə uyğun olaraq aşağıdakı vəzifələrin reallaşdırılması nəzərdə tutulmuşdur:

- XVIII əsrdə böyük dövlətlərin Cənubi Qafqaz uğrunda rəqabətinin güclənməsinin səbəblərini acıqlamaq;

- XVIII əsrdə beynəlxalq münasibətlər sistemində rəqabət aparan İngiltərə, Fransa, Rusiya və Osmanlı kimi böyük dövlətlərin geosiyasi hədəflərində Cənubi Qafqazın, bu zəmində Azərbaycanın yerini araşdırmaq

- XVIII əsrdə beynəlxalq münasibətlər sistemində dənizlər məsələsini və bu baxımdan Xəzər dənizinin strateji əhəmiyyətini göstərmək;

- Xəzərin hüquqi statusu uğrunda mübarizə tarixinə aydınlıq gətirmək;

- Xəzər dənizi hövzəsində xarici ölkələrin iqtisadi və siyasi maraqlarını öyrənmək

-Səfəvilər, Nadir şah və xanlıqlar dövründə ticarət və donanma işinin təşkili ilə bağlı məsələləri açıqlamaq;

- Azərbaycanın əvvəlki dövrlərdəki kimi XVIII əsrdə də beynəlxalq ticarət əlaqələrində üstün mövqeyini qoruyub saxlamasını işiqlandır-

---

СПб, 1886; Yenə onun: Н Георгий XII последний царь Грузии и присоединения ея к России СПб., "Типография Департамента уделов" 1867; Потто В. Исторический очерк кавказских войн; от их начала до присоединения Грузии. Тифлис. Типография Канцелярии Главноначальствующего гражданской частью на Кавказе 1899; Yenə onun. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. СПб., 1888.

[28] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г., ч. 1-3, СПб., 1869; Бутурлин Д. Военная история походов россиян в XVIII столетии (заключавшая в себе описание Персидской войны с 1722 по 1734-й год). Перевод с французского А.Корниловича. СПб., Военная Типография Главного Штаба Его Императорского Величества, 1823.

maq;

- Azərbaycanın Avropa, Şərq, Qafqaz ölkələri ilə siyasi əlaqələrini göstərmək;

- Azərbaycanın Avropa, Şərq, Qafqaz ölkələri ilə igtisadi münasibətlərinin tarixinə aydınlıq gətirmək;

- XVIII əsrin sonunda İngiltərə, Fransa, Rusiya və Osmanlı dövlətlərinin Azərbaycan uğrunda rəqabətinin nəticələrini göstərmək.

**Tədqiqatın nəzəri-metoloji əsası.** Dissertasiyanın nəzəri-metodoloji əsasını tədqiqata cəlb olunmuş ilkin mənbələrin materiallarının və tədqiqatlardakı faktların, ümumiləşdirmələrin, mülahizələrin obyektiv və müqayisəli təhlili təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın başlıca elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- İlk dəfə olaraq XVIII əsrdə böyük dövlətlərin Azərbaycan siyasəti problemi ayrıca tədqiqat obyekti kimi seçilmişdir və bu əsərdə bir sıra əhəmiyyətli müddəalar irəli sürülmüşdür;

- XVIII əsrdə beynəlxalq münasibətlər və geosiyasi maraqlar sistemində Cənubi Qafqazın yeri göstərilmişdir;

- XVIII əsrdə Azərbaycanın Avropa ölkələri ilə siyasi əlaqələri şərh edilmişdir;

- XVIII əsrdə Azərbaycanın Şərq ölkələri ilə münasibətləri araşdırılmışdır;

- XVIII əsrdə Xəzərin hüquqi statusu uğrunda mübarizə məsələlərinə aydınlaq gətirilmişdir;

- XVIII əsrdə Azərbaycanın böyük dövlətlərin geosiyasi marağında olduğunun ümümi mənzərəsi açıqlanmışdır;

- XVIII əsrdə Azərbaycanın böyük dövlətlərin iqtisadi marağındakı gerçəklikləri üzə çıxarılmışdır;

- XVIII əsrdə Azərbaycanın iqtisadi həyatı yeni faktlarla işıqlndırılmışdır;

- XVIII əsrdə Azərbaycanda ticarət və donanma işinin təşkili ilə bağlı məsələlər araşdırılmışdır;

- XVIII əsrdə Xəzər hövzəsi ticarət yolları və xammal bazasının Boyük dövlətlərin xüsusi maraq dairəsində olduğu yeni faktlarla göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın əməli əhəmiyyəti ilk növbədə ondan ibarətdir ki, tədqiqat işində gətirilən faktiki material və ümumiləşdirmələrdən, bu materiallardan əldə olunmuş elmi nəticələrdən universitetlərin tarix fakültələrində, ixtisas kurslarının aparılmasında, ümumiləşdirilmiş əsərlərin yazılmasında, tədris və dərs vəsaitlərinin hazırlanmasında, elmi konfrans və seminarların keçirilməsində geniş istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas məzmunu müəllifin müxtəlif elmi nəşrlərdə çap etdirdiyi elmi məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, doqquz yarımfəsil, nəticə, dissertasiya işində qəbul edilmiş ixtisarlar, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın birinci fəsli **"XVIII əsrdə Beynəlxalq münasibətlər sisteminin əsas istiqamətləri"** adlanır və iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil "XVIII əsrə qədər Azərbaycanın yaxın və uzaq qonşularının geosiyasi konsepsiyaları" adlanır. Bu yarımfəsildə XVII-XVIII əsrlərdə böyük dövlətlərin xarici siyasətinin aparıcı istiqamətləri verilmiş, Vestfal sisteminin formalaşmasının səbəbləri, Vestfal sülh konfransından sonra Qərbi Avropada formalaşmış qüvvələr nisbəti, Avropanın aparıcı dövlətlərinin xarici siyasətlərində dəyişikliklərə nəzər salınmışdır. Yarımfəsildə Versal sülh konfransı İspaniya və Portuqaliyanın feodal-kilsə simbiozuna arxalanan xarici siyasət prinsiplərini İngiltərə, Fransa, Niderlandın dövlət və milli maraqlarının üstün tutulması

prinsipləri ilə əvəz etdiyi[29] göstərilmişir. Burada həmçinin, Vestfal sülh konransından sonra yeni yaranmış beynəlxalq münasibətlərin əsas əlamətlərinə nəzər salınmış və onların xüsusiyyətləri göstərilmişdir.

XVII əsrin ortalarından başlayaraq müstəmləkə işğalının genişlənməsi müstəmləkəçi dövlətlər arasında rəqabətin genişlənməsinə səbəb oldu. XVII əsrin ikinci yarısından ortaya çıxan yeni münasibətlərin bir nəzəri əsası da Avropa hüquq mənbələrində konvenant adlanan prosedur idi.[30] Beynəlxalq münasibətlər sistemində "qüvvələr tarazlığı" prinsipi çox kövrək bir sistem idi. Buna görə də XVII-XVIII əsrlər üçün tez-tez dəyişən ittifaqlar, müqavilələr və münaqişələr səciyyəvi idi.

Yarımfəsildə Fransa, Almaniya və Niderlandda irəli sürülmüş müxtəlif siyasi nəzəriyyələr öz əksini tapmış və onların elmi cəhətdən geniş şərhləri verilmişdir. Burada həmçinin, XVII əsrin II yarısından başlayaraq Rusiyanın xarici siyasəti, ərazisinin genişlənməsi prosesi izlənilmiş, Osmanlı Türkiyəsinin geosiyasi baxışlarına da toxunulmuşdur. Karlovça müqaviləsindən başlayaraq Osmanlı geostrategiyasında orijinal bir vəziyyət yaranmışdı. Türkiyə Avropa dövlətləri ilə sıx əlaqələr saxlayır, lakin nə Avropa tərəfindən Avropanın tərkib hissəsi kimi tanınır, nə də özünü Avropanın tərkib hissəsi hesab edirdi. Buna baxmayaraq Osmanlı dövləti Avropa dövlətləri ilə fəal siyasət aparır, onlarla yaxınlıq edirdi.[31]

Dissertasiyanın birinci fəslinin ikinci yarımfəsli "XVIII əsrdə Azərbaycanda böyük dövlətlərin siyasətinin əsas praktiki hədəfləri" adlanır. Burada Qərbi Avropa ölkələrinin XVIII əsrə qədər və XVIII əsr boyu Azərbaycanda olan iqtisadi, siyasi maraqlarına toxunulur, eyni zamanda İngiltərədən başlayaraq, Fransa, Niderland, Rusiyanın Səfəvilər dövləti ilə münasibətlərinə, Səfəvilərin Avropa ilə münasibətlərində Azərbaycanın yerinə xüsusi qiymət verilir. XVII-XVIII əsrlərdə Azərbaycanın

[29] Ибрашев Ж.У. История международных отношений и внешней политики. ч. I. Алматы: "Қазақ университеті" , 1998, с.87.
[30] Медяков А.С История..., с.6.
[31] Медяков А.С. История..., с.44.

tarixi taleyi Səfəvilərin və ondan sonra hakimiyyətə gələn sülalələrin taleyi ilə sıx bağlı olması göstərilir.

XVI əsrin sonundan başlayaraq Səfəvi dövlətinin iqtisadi marağına uyğun olaraq İngiltərə ilə tiçarət münasibətləri genişləndi. Şah I Abbas 1616-ci ildə xüsusi fərmanla ingilis tacirlərinə ölkənin ərazisində sərbəst tiçarət etmək hüququ verdi. Beləliklə, ingilis tiçarət kapitalı Farsın çənubundan Azərbaycan və Gilan ipəyinə "yeni qapı" aça bildi. [32] Lakin Səfəvi şahı I Abbas Avropa ölkələrindən Osmanlı dövlətinə qarşı yardım ala bilmədi. Bütün bunlar dissertasiyada öz əksini tapmışdır.

Artıq XVII əsrin 20-ci illərində isə Səfəvi şahlarının Osmanlı dövlətinə qarşı Avropa ölkələrinin yardımlarına ehtiyacları yox idi. Ona görə də avropalıları Azərbaycanın içərilərinə buraxmaq istəmirdilər. İlk olaraq Səfəvilər ərazisində müstəmləkə ticarəti yaratmağa çalışan dövlət Portuqaliya oldu.[33] Portuqaliyalıların Hörmüzdə möhkəmlənməsi Səfəvilər dövlətinin Qafqazdakı ticarətinə də mənfi təsir göstərirdi. XVI əsrdən başlayaraq tacirlər bura daha çox Rusiya vasitəsilə gəlirdilər. Bu isə Volqa-Xəzər ticarət yolunun əhəmiyyətinin artmasına səbəb oldu.[34]

XVI əsrin II yarısında Portuqaliya ilə hərbi cəhətdən üz-üzə gəlmək iqtidarında olmayan ingilis tacirləri Azərbaycanla ticarət etmək üçün daha əlverişli yollar axtarırdılar.[35] Yarımfəsildə Səfəvilərin Hollandiya, Rusiya və Fransa ilə münasibətlərinin xüsusiyyətləri də şərh edilmişdir.

Dissertasiyanın ikinci fəsli **"Azərbaycan XVIII əsrdə böyük dövlətlərin siyasi marağında"** adlanır. Fəslin birinci yarımfəslində Azərbaycanda İngiltərənin siyasi maraqları göstərilmiş, XVIII əsrdə Azərbaycanın Avropa dövlətləri və Rusiyanın siyasi maraqlarındakı yeri verilmiş, eyni zamanda Azərbaycanın beynəlxalq aləmdə çəkişmə obyektinə çevrilməsinin səbəbləri tədqiq edilmişdir.

---

[32] Bax: Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri, s.245-247.
[33] Туманович Н.Н. Европейские державы в Персидском заливе в XV1-X1X вв. Москва: Наука, 1982, с.34.
[34] Bəxşəliyev A.B. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri. Bakı: 2009, s.127.
[35] Смирнов Н.А. Политика России на Кавказе в XVI-XIX веках. Москва: «Издательство социально-экономической литературы», 1958. с.123.

Yarımfəsildə İngiltərənin Azərbaycanda siyasi maraqlarının əsasları göstərilmişdir. Qeyd edilir ki, İngiltərə Azərbaycana üç istiqamətdə nüfuz etməyə çalışırdı. Birinci, İngiltərə Osmanlı dövlətində olan nüfuzundan istifadə edərək Osmanlı imperiyasını Qafqazı ələ keçirməyə təhrik edirdi. O.Markova da Osmanlı sarayı vasitəsilə İngiltərə agentlərinin Qafqazda geniş fəaliyyətlə məşğul olduqlarını qeyd edir.[36]

İkinci yol, İran körfəzi vasitəsilə Səfəvilərin ticarətini, xüsusilə ipək ticarətini ələ keçirmək, buradan şimala doğru irəliləyərək Xəzər ticarətinə də əl qoymaq idi. İngilislərin burada üstün cəhəti ondan ibarət idi ki, onlar İran körfəzində öz əsas rəqibləri Hollandiyanı sıxışdırıb çıxarmışdılar. Sonrakı rəqibləri olan Fransa isə hələ bu ərazilərdə zəif idilər. XVIII əsrin ilk onilliklərində Səfəvilərdəki siyasi zəiflikdən istifadə edən bəzi feodallar artıq ona tabe olmaqdan boyun qaçırırdı. Belə ki, ingilis və hollandlardan yardım alan Oman bəyi Bəhreyni özünə tabe etməyə çalışırdı.[37] Nəticədə Şah Sultan Hüseyn Omana qarşı hərbi ekspedisiya göndərdi. 1722-ci ildə əfqanlar tərəfindən Şah Sulatn Hüseynin hakimiyyətdən devrilməsini qənimət bilən ingilislər 1727-ci ildə Keşmi ələ keçirdilər. İngilislərin Keşmi işğal etməsindən yararlanan hollandlar da Hörmüz adasını işğal etdilər. Bu ərazilər XVIII əsrin 30-cu illərinə qədər avropalıların əlində qaldı.

İngilislərin Xəzəryanı vilayətlərdə, Azərbaycan ticarətində üstünlüyü ələ almaq istəməsinin üçüncü yolu Rusiya vasitəsilə bu ərazilərin ticarətinə nüfuz etmək idi. XVIII əsrin əvvəllərindən başlayaraq Rusiya İngiltərə ticarətində maraqli bir tendensiya özünü göstərirdi. Bu da hər iki dövlətin bazarlarında həmin ölkələrin mallarına tələbatının həddindən artıq yüksək olması idi.[38]

Azərbaycanda öz maraqlarını təmsil etmək üçün İngiltərə dolayı yollardan da istifadə edirdi. Bunlardan da biri Nadir şah dövləti ilə Osmanlı

---

[36] Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII веке. Москва: Наука, 1966,с.99.

[37] Туманович Н.Н. Европейские.., с.55.

[38] Bax: Шипилов А.В. Торговля, транспорт и связь в России первой половины XVIII века. Воронеж: ВГПУ, 2005, с.121.

dövləti arasında yaxınlaşmanı istiqamətləndirmək idi. Onların fikrincə yalnız bu iki dövlətin ittifaqı Rusiyanın Qafqazda və Xəzərsashili vilayətlərdə, o cümlədən Azərbaycanda möhkəmlənməsinə mane ola bilərdi. Məhz İngiıtərə və Fransanın təsiri ilə Osmanlı dövləti Nadir şahla 1736-cı ildə Ərzurum müqaviləsini bağladı.[39] Lakin 1739-cu il Belqrad müqaviləsi ilə Osmanlı dövləti Rusiyanın Qafqazdakı nüfuzunu tanımalı oldu.

1762-ci ildə II Yekaterina hakimiyyətə gəldikdən sonra, İngiltərə səfiri qraf Bekinhem Peterburqa gəldi. Onun məqsədi İngiltərə Rusiya yaxınlaşmasından istifadə edərək 1734-cü il ticarət müqailəsini bərpa etmək idi. Onun danışıqları səmərəsiz qaldı. Ona görə də lord Bekinhem Peterburqda lord Makkartnlə ilə əvəz edildi. Lakin onun da apardığı danışıqlar 1766-cı ilə qədər davam etdi. Nəticədə Rusiya və İngiltərənin qarşılıqlı öhdəlikləri haqqında traktat imzalandı. Lakin İngiltərə diplomatları bu dəfə də İranla Rusiya vasitəsilə güzəştli ticarət imkanları qazana bilmədilər.[40]

Dissertasiyanın ikinci fəslinin ikinci yarımfəsli "Azərbaycan Fransanın siyasi marağında" adlanır. Fransa Xəzəryanı bölgələrin iqtisadi-siyasi əhəmiyyətinə hələ XVIII əsrin əvvəllərindən maraq göstərirdi. 1705-ci ildə Fransa hökuməti Fransa təbəəsi Jan Batist Fabrenin rəhbərliyi ilə Səfəvi dövlətinə elçi göndərdi. 1705-ci ildə İrəvanda Fabrenin vəfatından sonra Mariya Petit özünü elçiliyin rəhbəri elan etdi.[41] Fransa elçiliyinin missiyası 1708-ci il sentyabrın 14-də Səfəvilərlə Fransa arasında ticarət müqaviləsinin bağlanması ilə nəticələndi.[42]

1725-ci ildə I Pyotrun ölümündən sonra Avropada Fransa-Rusiya münasibətlərinin pisləşməsi, eyni zamanda Qafqazda Rusiyanın mövqeinin zəifləməsi Fransanın siyasətinin fəallaşmasına səbəb oldu. Lakin

---

[39] Махмудова К.З. Северо-Восточный Кавказ в политике России, Ирана и Турции в XVIII-20-е годы XIX в. (Автоеф. дисс. на соис. уч. степени докт. ист. наук). Владикавказ: 2013, с.242.

[40] Лабутина Т.Л. Британские дипломаты в борьбе за преференции в торговом договоре 1766 года (по материалам переписки англилнйских послов). Вестник Рязанских Государственного Университитета имени С.А.Есенина, 2015 №4, с.119-123.

[41] Dadaşova R.İ. Səfəvi dövlətinin.., s.286.

[42] Azərbaycan: beynəlxalq münasibətlər və ..., s.42.

Fransa bu dəfə də Osmanlı imperiyasından istifadə etdi. Belə ki, bir az da Fransanın təhriki ilə Osmanlı ordusu Rusiyanın Azərbaycanda passivliyindən istifadə edərək, Xəzəryanı bölgələrdən başqa Səfəvilərin demək olar ki, bütün ərazisini işğal etdi. Eyni zamanda Fransanın yardımı ilə əfqanlarla 1727-ci ildə Həmədan sazişi imzalandı.[43] Səfəvi dövləti və Rusiya arasında Rəşt müqaviləsinin bağlanması Fransa diplomatiyasını Qafqazda daha fəal siyasət yürütməyə məcbur etdi. Lakin Rusiyanın Osmanlı üzərindəki qələbəsi və 1739-cu ildə Belqrad müqaviləsinin bağlanması Fransanın planlarının uğursuzluğuna səbəb oldu.

Fransanın Azərbaycanda möhkəmlənməyə yönəlmiş fəaliyyətinin sonrakı canlanması XVIII əsrin 80-ci illərinə düşür. 1784-cü ilin yazında İstanbuldan İrana Fransa rezidenti de Ferier Sovbyöf gəlir, o, İran taxti uğrunda mübarizə aparan Əli Murad xanla görüşür və onu Rusiya ilə münasibətləri pozmağa sövq etməyə çalışır. Ferrier hətta Rusiyaya qarşı İran, Osmanlı dövləti və Fransanın siyasi ittifaqını təklif edirdi. Cənubi Qafqazda Rusiyanın hərbi kommunikasiyalarını öyrənmək üçün onunla bir yerdə fransız mütəxəssisləri də gəldilər. Fransa diplomatiyasını səyləri nəticəsində Əli Murat xanın Rusiya ilə münasibətləri pozulmağa başlayır.[44]

Dissertasiyanın ikinci fəslinin üçüncü yarımfəsli "Azərbaycanda Rusiyanın siyasəti" adlanır. I Pyoturn hakimiyyətə gəlməsindən sonra Rusiyanın Şərq ölkələri, xüsusilə Azərbaycanla ticarət əlaqələri artmağa başladı. Əgər əvvəllər Azərbaycanla Rusiya arasında ticarət istehlak xarakteri daşıyırdısa, XVIII əsrin əvvəllərindən başlayaraq baş verən iqtisadi yüksəliş Rusiyanı həmin ölkələrdə öz sənayesi üçün xammal – pambıq, yun, xüsusilə, ipək axtarmağa məcbur edirdi. Azərbaycan ipəyinə bu baxımdan Rusiyanın marağı həddindən artıq böyük idi.[45]

İlk vaxtlar I Pyotr Qafqaz və Azərbaycan ticarətində öz mövqelərini möhkəmləndirmək üçün diplomatik və iqtisadi metodlara üstünlük

---

[43] Михнева Р. Россия и Османская империя в международных отношениях в середине XVIII века. Москва: Наука, 1985, с101.
[44] Абдуллаев Г.Б. Из истории .., с.129.
[45] Магомедов Н.А. Экономическое развитие Дербентского ханства в XVIII веке. АКД., Нальчик: 1985, с.113.

verirdi. O, bir neçə dəfə Xəzəryanı bölgələrin öyrənilməsi üçün ekspedisiyalar göndərmişdi. Lakin bunlardan ən uğurlusu 1715-1718-ci illərdə Səfəvi sarayına yola salınan A.P.Volınskinin elçiliyi oldu ki, bu da Rusiya ilə ticarət müqaviləsinin bağlanması ilə nəticələndi.[46]

Lakin İsveçlə müharibə və Rusiyanın hərbi cəhətdən Xəzəryanı bölgələrə nüfuz etməyə hazır olmaması səbəbindən Rusiya hələ ki, sakit davranmağı üstün tuturdu. 1722-ci ilin martında əfqanların İsfahanı tutması, Rusiyanın Xəzəryanı bölgələrə yürüşünə təkan verdi. 1722-ci ilin iyuluda başlayan yürüş, 1723-cü ilin iyulunda Bakının işğalı ilə başa çatdı. Buna cavab olaraq Osmanlı ordusu da Azərbaycana yürüş etməyə başladı. Bununla da Rusiya-Osmanlı dövləti ilə danışıqlara getməyə məcbur oldu və 1724-cü il İstanbul müqaviləsinin bağlanması ilə başa çatdı. Nəticədə Azərbaycan torpaqları Osmanlı dövləti ilə Rusiya arasında bölüşdürüldü.[47]

Lakin I Pyotrun ölümündən sonra Rusiyanın Azərbaycan siyasətində dəyişiklik oldu. Bu da Rusiyanın Qafqazda fəal xarici siyasətdən qismən imtina etməsi idi. 1732-ci il və 1735-ci il Rusiya üçün əlverişli olan Rəşt və Gəncə müqavilələri Rusiyanın Qafqazda diplomatik fəallığının birbaşa sübutudur. Taxta çıxan Yelizaveta Petrovnanın dövründə də Rusiya Azərbaycandakı hadisələri yaxından izləyirdi. Buna sübut olaraq Rusiyanın Azərbaycandakı gəmiqayırma işlərinə müdaxilə etməsini misal gətirə bilərik.

Lakin Rusiyanın Qafqaz və Azərbaycandakı fəal siyasəti II Yekaterinanın dövründən daha da fəallaşdı. Belə ki, Azərbaycanda yaranmış siyasi dağınıqlıq Rusiyanın bu ərazilərdə siyasi nüfuzunun möhkəmlənməsi üçün əlverişli imkanlar yaradırdı. Lakin Osmanlı dövlətindən çəkindiyi üçün Rusiya ilk vaxtlar diplomatik və ticarət əlaqələrindən istifadə etməyə üstünlük verirdi. Lakin 1791-ci ildə Yassı müqaviləsinin imzalanması Rusiyanın Azərbaycanda əl qolunun açdı. Nəticədə

---

[46] Махмудова К.З Кавказский вектор в восточной политике Петра I (1700-1722). Вестник Владикавказского научного центра. т.15, № 1, 2015, с 7.
[47] Мустафазаде Т. Азербайджан и русско..., с. 67-109.

1796-ci ildə V.Zubovun Xəzəryanı bölgələrə hərbi müdaxiləsi başladı. Ancaq 1796-cı ildə II Yekaterinanın ölümü bu prosesi yarımçıq qoydu.

Dissertasiyanın ikinci fəslinin dördüncü yarımfəsli Osmanlı imperiyasının Qafqazda siyasi maraqlarına həsr edilmişdir. İqtisadi və siyasi cəhətdən tənəzzülə uğrayan Osmanlı dövləti get-gedə Avropa dövlətlərinin asılılığına düşür, eyni zamanda Qafqazda yavaş-yavaş siyasi və iqtisadi üstünlüyünü itirirdi. Qafqazda və Azərbaycanda onun əsas rəqibi olan Rusiya isə əksinə daha da güclənir və yavaş-yavaş Osmanlı imperiyasını öz mövqelərindən sıxışdırıb çıxarırdı. Osmanlı dövlətinin Qafqaz siyasətində sonuncu böyük uğuru 1724-cü il İstanbul sülhünün imzalanması oldu. Müqavilənin şərtlərinə görə Osmanlı imperiyası, Rusiyanın tutduğu Xəzəryanı əyalətlərin şah tərəfindən "könüllü" verdiyini, bu əyalətlərin artıq rəsmən Rusiyanın olduğunu tanıdı.[48]

I Pyotrun ölümündən sonra Rusiyanın Qafqazda passivliyindən istifadə edən Osmanlı dövləti bu imkanı tələsik reallaşdırmağa başladı. Nəticədə 1725-ci ilə doğru Həmədan, Astrabad, Mazandaran və Fars istisna olmaqla Səfəvilərin bütrün əraziləri ələ keçirildi. Lakin Nadirin hakimiyyətə gəlməsi ilə Osmanlıların buradakı hərbi gücünə birdəfəlik son qoyuldu.

Dissertasiyanın üçüncü fəsli **"XVIII əsrdə böyük dövlətlərin Azərbaycanda iqtisadi maraqları"** adlanır. Fəslin birinci yarımfəsli "Qərb dövlətləri və Rusiyanın Azərbaycandakı iqtisadi maraqları" adlanır. XVII əsrin sonlarından başlayaraq Azərbaycanda fəal iqtisadi siyasət yürüdən başlıca Avropa dövləti İngiltərə idi. Səfəvi şahı Sultan Hüseynin onlara qarşı şəxsi rəğbətindən istifadə edən ingilislər Omanda özlərinə hətta siyasi nüfuz əldə edirlər və hollandlarla birgə 1718-ci ildə Oman şeyxini Bəhreyni tutmağa təhrik edirlər. Lakin buna nail ola bilmirlər. 1727-ci ildə Səfəvilərin paytaxtının əfqanlar tərəfindən işğalından istifadə edən ingilislər Keşmi, hollandlar isə Hörmüz limanını

[48] Вах: Лысцов В.П Персидский поход Петра I. Москва: МГУ, 1951, с.202.

ələ keçirdilər.[49]

İngilislər Xəzəryanı bölgələrdə də xeyli fəal idilər. Buna da şərait yaradan I Pyotrun onlara müəyyən ticarət güzəştləri etməsi idi. I Pyotrun ingilislərlə razılaşmasına görə onlar Şimali Azərbaycandan aldıqları ipəyi Volqa Xəzər yolu ilə gətirib Rusiyada satmalı idi. İngilis taciri T.Hanveyin dediyinə görə, XVIII əsrin əvvəllərində Şirvan İngiltərə ticarətinin ən çox fəallıq göstərdiyi yer idi.[50] I Pyotru ingilislərin vasitəçiliyinə müraciət etməyə məcbur edən başqa bir səbəb də ingilislərin dənizçilik sahəsində təcrübələrinin ruslardan çox olması idi. Bronevskinin yazdığına görə rusların gəmiləri kiçik və zəif olduqlarına, dənizçilik texnikası aşağı səviyyədə olduğuna görə ruslar Niyazabaddan o tərəfə gedə bilmirdilər.[51]

Lakin Anna İvanovnanın dövründə Rusiyanın Qafqaz siyasətində xeyli dəyişiklik baş verir. Bunlardan biri də Rusiyanın müvəqqəti olsa da Xəzəryanı vilayətlərdən siyasi cəhətdən uzaqlaşması idi. 1734-cü il dekabrın 2-də aparılan uzun danışıqlar nəticəsində Rusiya ilə İngiltərə arasında ingilis tacirlərinə İranla Rusiya vasitəsilə tranzit ticarət müqaviləsi imzalandı. 1736-cı ildə Rusiya və İngiltərə tərəfindən tranzit ticarəti birgə həyata keçirən "Rusiya" şirkəti yaradıldı.[52]

Lakin tezliklə ingilislərin Xəzər dənizindəki fəaliyyətləri Rusiya hakim dairələrində təşviş yaratmağa başladı. Bunun birinci səbəbi müqavilədə olan boşluqlardan istifadə edərək ingilislərin özlərinə donanma inşa etmələri idi. İkincisi, ingilislərin C.Eltonun simasında Rusiya tranzitindən istifadə etməklə Nadir şaha donanma düzəltməkdə kömək etmələri idi. Üçüncüsü, İngiltərənin ticarətə kapital qoyma gücünün Rusiyanın sərmayə gücündən dəfələrlə artıq olması idi. Bu da ruslara

---

[49] Туманский Ф. Описание похода Петра Великого к лежащим при Каспийском море персидским провинциям. Российский магазин, часть 3. СПб, 1793—с 54

[50] Сидорова В.П.Британский взгляд на торговлю России и Ирана в середине XVIII века. www.cyberleninka.ru

[51] Броневский С.Б. Новейшие ..., с.444.

[52] Никонов О. А Государственно правовая защита Российских интересов на Каспийском регионе в XVIII- XIX в.в. www.cyberleninka.ru

ingilis tacirləri ilə açıq rəqabət aparmağa imkna vermirdi.[53] Vəziyyətin nəzarətdən çıxdığını görən ruslar 1746-cı ildə İngiltərə tacirlərinə Rusiya vasitəsilə İranla ticarət etməyi qadağan etdilər.

1722-1723-cü illərdə Rusiya Aəzərbaycanda öz iqtisadi maraqlarını təmin etmək üçün birbaşa ekspansiya yolunu seçdi. Artıq 1723-cü ilin yayına Xəzər dənizində Rusiyanın müxtəlif dərəcəli 144 gəmisi var idi.[54] 20 sentyabr 1723-cü ildə Rusiya senatı Həştərxana gələn əcnəbilərə Rusiyada pərakəndə ticarət etməyə və iş qurmağa icazə vermişdi. I Pyotr strateji məntəqələr hesab etdiyi ayrı-ayrı şəhərlərə müəyyən ticarət güzəştləri edir, ətraf ərazilərin həmin şəhərlərin ticarətinə cəlb edilməsinə çalışırdı.

I Pyotrun ölümündən II Yekaterinanın dövrünə qədər Rusiya hakim dairələri Xəzər dənizində fəal hərbi siyasi xətt yeridə bilmir, daha çox diplomatik vasitələrə əl atırdı. Rusiyanın iqtisadi fəallığının güclənməsi II Yekatierinanın dövrü ilə daha çox bağlıdır. Onun dövründə ticarətin bir çox mallarının dövlət inhisarından alınması ticarətin inkişafına xeyli müsbət təsir göstərmişdi. Eyni zamanda hökumət xarici və Azərbaycan tacirlərinin Rusiyada fəallığının artmasına qarşı da tədbirlər görürdü. Bundan başqa, Azərbaycanla ticarətdə Rusiya siyasi təzyiq formalarına da üstünlük verirdi. Buna Voynoviçin ekspedisyası misal ola bilər.

Dissertasiyanın üçüncü fəslinin ikinci yarımfəsli Osmanlı imperiyasının Azərbaycandakı iqtisadi maraqlarına həsr edilmişdir. XVIII əsrdə Azərbaycanda iqtisadi maraqları olan başlıca dövlətlərdən biri də Osmanlı dövləti idi. 1724-cü il İstanbul müqaviləsindən sonra Şirvanın bir hissəsi də daxil olmaqla Osmanlı üsul-idarəsi yarandı. Birincisi Osmanlı dövləti Azərbaycanda ayrı-ayrı orqanlar olan inzibati idarə, maliyyə və məhkəmə sistemlərini tətbiq etdi. Orqanlara uyğun olaraq bəylərbəyi yaxud sərəskər, dəftərdar və qazı rəhbərlik edirdi. Azərbaycan

---

[53] Вах: Юнусова Л.Н. Торговая экспансия Англии в бассейне Каспия в первой половине ХУШ века. Баку: Элм, 1988, с.98.

[54] Чекулаев Н. Д Российские войска в Дагестане в контексте Кавказской политики России (1722-1735 гг.) Махачкала: 2008. http://www.litsoch.ru/referats/read/148974/

torpaqları inzibati vahidlərə - vilayətlərə, əyalətlərə və sancaqlara bölünürdü. [55]

Osmanlı dövləti ölkə daxili ticarəti yaxşılaşdırmaq üçün də bəzi tərdbirlər görmüşdü. Misal üçün Arif Əhməd paşanın təklifi ilə 1724-cü ildə Arpaçayın məcrası təmizlənərək gəmiçilik üçün yararlı hala gətirildi. Bundan başqa, Arif Əhməd paşa Araz çayını da naviqadiya üçün yararlı hala gətirib İrəvanı birbaşa Xəzər dənizi ilə birləşdirməyi təklif edirdi. Bundan başqa, İrəvan şəhərində bir neçə karvansaray tikilmiş və hazır vəziyyətə gətirilmişdir.[56]

Dissertasiyanın üçüncü fəslinin üçüncü bölümü **"Azərbaycanda dəniz ticarəti və donanma işinin təşkili"** adlanır. XVIII əsrin ikinci yarısında Azərbaycanın əsas su yolları Xəzər dənizindən keçirdi. Bunların içərisində ən əsası Volqa-Xəzər su yolu idi. Bu su yolu Azərbaycanı Rusiya ilə əlaqələndirən yeganə su yolu idi və bu yolla da dünya bazarına çıxa bilirdi. XVIII əsrdə bu yolın nəqli istiqamti belə idi: öz başlanğıcını Azərbaycanın limanlarından götürərək o Həştərxana, oradan Volqa ilə Saritsin, Kazan və Nijni Novqoroda, sonra isə Oka və Moskva çayı ilə Moskvaya çatırdı. Dissertasiyada Azərbaycanın liman şəhərlərində gedən fəal ticarət haqqında danışılmış, Volqa-Xəzər ticarət yolunun ticərət miqyası əyani təsvir edilmişdir.

Həmin bölümdə Nadir şahın və ondan sonrakı dövlət xadimlərinin Xəzər dənizində donanma yaratmaq sahəsində çalışmalarına da yer ayrlmışdır. Bundan başqa Ruisya özü də Azərbaycan hökmdarlarının Xəzərdə gəmiçilik işini qayadaya salmaq üçün göstərdikləri əməyə qısqanc yanaşır və müxtəlif vasitələrlə bunları qabaqlamaq istəyirdi. Buna müxtəlif materialların və kadrların gətirılməsinə qoyulan qadağalarla yanaşı, birbaşa dənizdə əcnəbi gəmilərin məhv edilməsi kimi müxtəlif tədbirləri misal göstərmək olar.

Dissertasiyanın nəticə hissəsində aparılan elmi arşdırmalara, əldə edilmiş elmi nəticələrə yekun vurulmuşdur.

---

[55] Bax: Мустафазаде Т.Т. Азербайджан и русско...,с.111-113.
[56] Mustafazadə T. XVIII yüzillik-XIX yüzilliyin..., s.47

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1.“XVIII əsrin birinci rübündə Rusiyanın xarici siyasətində Azərbaycan məsələsi” // ADPU. Xəbərlər №4. Humanitar elmlər seriyası, Bakı: 2007, s.120-124.

2.“Azərbaycan xanlıqlarında ticarət və donanma işinin təşkili” // ADPU. Xəbərlər №2. Humanitar elmlər seriyası, Bakı: 2008, s.92-97.

3.“Азербайджан в системе Международных торговых отношений во второй половине XVIII века” // Журнал научных публикаций аспирантов и докторантов №2 февраль. Курск: 2009, с.84-88

4.“Xanlıqlar dövründə ipək diplomatiyası” // BDU. Tarix və onun problemləri. Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş xüsusi buraxılış №3. Bakı: 2009, səh.41-46

5.“Кодификация правового статуса Каспия во второй половине XVIII века.” // Doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları №1, Bakı: 2011,səh.300-302

6.“XVIII əsrdə İngiltərənin Azərbaycanda iqtisadi-siyasi maraqları” // GDU. Qafqaz tarixinin aktual problemləri. Beynəlxalq kofrans 15-16 oktyabr 2015-ci il. I hissə. Gəncə: 2015, səh.46-51

7.“XVIII əsrin sonunda Fransanın xarici siyasətində Azərbaycan maraqları” // GDU. Elmi Xəbərlər. Gəncə: 2016, №1.

8. “Азербайджан в контексте Российско-Османских геополитических противоречий в первой половине XVIII века” // Гілея: науковий вісник. Збірник наукових праць. Академия Наук Украины, октябрь, Киев: 2017, с…

**G.A.Allahverdiyeva**

# POLICY OF GREAT COUNTRIES IN AZERBAIJAN (XVIII CENTURY)

## SUMMARY

Dissertation is dedicated to the political and economic interests of the great powers in Azerbaijan in XVIII century.

In the dissertation has explained geopolitical processes in the region and the policy that has been carried out in Azerbaijan during XVIII century by Ottoman Empire, Russia and Western European countries. Dissertation consists of maps, bibliography, result, three chapters and introduction. In the introduction of dissertation has been given scientific practical importance and actuality of the topic, aims and objectives and at the same time, scientific innovation of the topic has been certified.

In the first chapter of dissertation has been explained the main direction of foreign policy of the great countries in XVII-XVIII centuries.

In the second chapter of dissertation have been explained political interests of great countries in Azerbaijan in XVIII centuries. Moreover have been explained political interests of Ottoman Empire, Russia, France and England in Azerbaijan and the features of their policy that had been carried out in Caspian region, Azerbaijan and Caucasus.

In the third chapter of dissertation have been explained economic interests of great countries in Azerbaijan. Commercial interests of Holland, Russia and England in Azerbaijan, their interests to natural wealth of Azerbaijan and the realization of these interests have also been included into this chapter.

As a result of dissertation above mentioned statements have been recapitulated and generalisation has been carried out.

**Г.А. Аллахвердиева**

# АЗЕРБАЙДЖБАН В ПОЛИТИКЕ ВЕЛИКИХ ГОСУДАРСТВ (XVIII век)

## РЕЗЮМЕ

Диссертасия посвящена политическим, экономическим интересам великих держав в XVIII веке, а так же их политике в Азербайджане для обеспечения своих геополитических интересов. В диссертации нашли своё отражение геополитические процессы и политика западноевропейских стран, России и Османской империи на протяжении XVIII века в Азербайджане. Диссертация состоит из введения, трех глав, заключения, списка использованной литературы и нескольких приложений.

Первая глава посвящена основным направлениям внешней политике великих государств в XVII-XVIII веках.

Вторая глава посвящена политическим интересам великих государств в Азербайджане в XVIII веке. В главе нашли отражения политические интересы Англии, Франции, России и Османской империи на Кавказе, особенно в Азербайджане и прикаспийских областях. В главе, так же затронута тема политического соперничества Англии и России в борьбе за Каспийское море, раскрыта взаимосвязь между происходящими процессами на Кавказе и политической средой в Азербайджане.

Третья глава диссертации посвящена экономическим интересам великих государств в Азербайджане. В главе раскрыты торговые интересы Англии, России и Голландии в Азербайджане. В главе показано торговое значение Каспия и инициатива создания флота в Азербайджане.

В заключении диссертации подведён итог проведённого исседования, сформулированы основные выводы, вытекающие из данной работы.

Tiraj 100 ədəd.

Turxan NPB

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ имени А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**Гюльтакин Афат кызы Аллахвердиева**

# АЗЕРБАЙДЖАН В ПОЛИТИКЕ ВЕЛИКИХ ГОСУДАРСТВ (XVIII век)

**Специальность: 5503.02 – Отечественная история**

# АВТОРЕФЕРАТ

**диссертация на соискание ученой степени доктора философии по истории**

**БАКУ - 2017**